صلاة الاستخارة

# İstixarə namazı


## Şeyx Heysəm Sərhan

"Sünnə" tədris mərkəzinin rəhbəri


Azərbaycan dili

اللغة الأذرية



Tərcümə edən: İlqar Eyvazoğlu


ALSARHAAN.COM

MAHADSUNNAH.COM

بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

İstixarə, bir insanın mühüm işlərə başlayarkən hansının xeyirli olduğunu bilmədiyində Allahdan seçim istəməsidir.

İstixarə yaxşı və ya pis olduğu bilinən ibadət və xeyir işlərdə olur. Günah və asiliklərə gəldikdə isə, bunlarda istixarə etmək düzgün deyil.

İstixarədə olan hikmət isə:

- Allahın əmrinə təslim olmaq.
- Dünya və axirət xeyirlərini əldə etmək üçün Allaha dönmək.

Bunları əldə etmək üçün dua və namazdan daha faydalı heç nə yoxdur. Çünki bunda Allahı təzim etmək, Onu tərifləmək və Ona möhtaclıq vardır.

İstixarə duasının edilmə qaydası:

Cabir ibn Abdullah (Allah ondan razı olsun) rəvayət edir ki, Peyğəmbər ﷺ qurandakı surələri bizə öyrətdiyi kimi istixarə duasını da bizə öyrədib deyərdi:[1]

“Sizdən biriniz bir işə başlamaq istədikdə fərz namazlarından əlavə iki rükət namaz qılsın və desin:

[1] Buxari 7/162

اللَّهُمَّ إِنِّي أَسْتَخِيرُكَ بِعِلْمِكَ، وَأَسْتَقْدِرُكَ بِقُدْرَتِكَ، وَأَسْأَلُكَ مِنْ فَضْلِكَ الْعَظِيمِ، فَإِنَّكَ تَقْدِرُ وَلاَ أَقْدِرُ، وَتَعْلَمُ وَلاَ أَعْلَمُ، وَأَنْتَ عَلاَّمُ الْغُيُوبِ. اللَّهُمَّ إِنْ كُنْتَ تَعْلَمُ أَنَّ هَذَا الْأَمْرَ خَيْرٌ لِي فِي دِينِي، وَمَعَاشِي، وَعَاقِبَةِ أَمْرِي – أَوْ قَالَ: عَاجِلِهِ وَآجِلِهِ – فَاقْدُرْهُ لِي، وَيَسِّرْهُ لِي، ثُمَّ بَارِكْ لِي فِيهِ. وَإِنْ كُنْتَ تَعْلَمُ أَنَّ هَذَا الْأَمْرَ شَرٌّ لِي فِي دِينِي، وَمَعَاشِي، وَعَاقِبَةِ أَمْرِي – أَوْ قَالَ: عَاجِلِهِ وَآجِلِهِ – فَاصْرِفْهُ عَنِّي، وَاصْرِفْنِي عَنْهُ، وَاقْدُرْ لِيَ الْخَيْرَ حَيْثُ كَانَ، ثُمَّ أَرْضِنِي بِهِ

Allahummə inni əstəxirukə bi ilmikə, və əstəqdirukə bi qudratikə, və əs'əlukə min fadlikəl-azım, fəinnəkə təqdiru və lə əqdir, və tə'ləmu və lə a'ləm, və əntə alləmul-ğuyub. Allahummə in kuntə tə'ləmu ənnə həzəl-əmra (işin adını çəkir) xayrun li fi dini və məaşi və aqibəti əmri, fəqdurhu li və yəssirhu li, summə bərik li fihi. Və in kuntə tə'ləmu ənnə həzəl-əmra (işin adını çəkir) şərrun li fi dini və məaşi və aqibəti əmri, fasrifhu anni, vəsrifni anhu, vəqdur liyəl-xayra heysu kənə, summə ardıni bihi.

Allahım! Səndən Öz elminlə mənə kömək etməyi və Öz qüdrətinlə mənə qüdrət verməyi diləyirəm. Səndən, Sənin böyük lütfünü diləyirəm. Sənin (hər şeyə) qüdrətin çatır, mənimsə qüdrətim çatmır, Sən (hər şeyi) bilirsən, mən isə bilmirəm. Qeybləri bilən Sənsən. Allahım! Bu işin (işin adını çəkir) mənim dinim, yaşayışım və aqibətim üçün xeyirli olduğunu bilirsənsə onu mənə nəsib et, asanlaşdır, sonra da onu mənim üçün bərəkətli et. Bu işin (işin adını çəkir) mənim dinim, yaşayışım və aqibətim üçün zərərli olduğunu bilirsənsə, onu məndən, məni də ondan uzaq et! Harada olsa, mənə xeyir nəsib et, sonra məni ondan razı sal!

İstixarə edən cavabın tez gəlməsini gözləməməlidir.

İxtixarəni namaz qılıb duasını edərək bir neçə dəfə təkrar edə bilər.

İstixarənin qəbul olma əlamətləri, qəlbin rahat olması və işlərinin düzəlməsidir. Hansısa bir yuxu görməsi şərt deyil.

Qəbul olunmama əlamətləri isə, insanın o işi alınmaması və o işdən uzaqlaşması və bu işin alınmamasından sonra qəlbinin ona bağlı olmamasıdır.

Uca Allah buyurur:

قال تعالى: ﴿وَعَسَىٰٓ أَن تَكۡرَهُواْ شَيۡـٔٗا وَهُوَ خَيۡرٞ لَّكُمۡۖ وَعَسَىٰٓ أَن تُحِبُّواْ شَيۡـٔٗا وَهُوَ شَرّٞ لَّكُمۡۚ وَٱللَّهُ يَعۡلَمُ وَأَنتُمۡ لَا تَعۡلَمُونَ ٢١٦﴾ [البَقَرَة : ٢١٦]

"Ola bilsin ki, sevmədiyiniz bir şey sizin üçün xeyirli, sevdiyiniz bir şey isə sizin üçün zərərli olsun. Allah bilir, siz isə (bunu) bilmirsiniz."[2]

---

[2] Bəqərə surəsi, 216-cı ayə